# GÖYƏRÇİN

İSSN-0207-4710

3
2024



# AYI

*(Altay nağılı)*

Urtımbay lovğa-lovğa deyirdi:

- Mən ayı öldürmək istəyirəm. Ağ alınlı, qaşqa ayıların dərisi çox bahalıdır. Satıb, çoxlu pul qazana bilərəm.

Əslində Urtumbay pis ovçu deyildi, ancaq bütün ovçular kimi o da lovğalanmağı sevirdi.

Oğlan arzusunu reallaşdırmaq məqsədiylə meşəyə sarı getdi. Elə bu zaman bir ayı sürünərək mağarasından çıxdı və Urtımbaya sarı gəlməyə başladı.

Urtumbay ayıya sarı bir ox atdı. Ancaq ox tamam kənara gedib düşdü. İkinci ox isə ayının çiyninə dəydi.

Oğlan bıçağı çıxarmağa macal tapmamış ayı onun üstünə cumdu. Onlar süpürləşdilər.

Urtımbay düşündü:

- Hər şey bitdi. Mən bir daha kumız içməyəcəyəm.

Nərildəyən ayının köpüklü dişləri ağarır, bədəni tir-tir titrəyir, yarasından xəzli dərisi aşağı qan süzülürdü.

O, çox əsəbiləşmişdi. Urtımbayi əzmək, onun dərsini vermək istəyirdi ki, təsadüfən gözləri oğlanın gözlərinə sataşdı.

Ayu Urtımbayın gözlərinin içində kiçik bir ağız, sarı dişlər və üzərində köpük gördü.

Urtımbayın gözləri də ayının gözlərinə sataşdı. O isə ayının gözlərində qorxudan qanı qaçmış bomboz sifətini, bir ovuc quru küləşə bənzəyən saqqalını gördü. Sapsarı küləşə bənzəyən saqqalın tükləri ayının gözlərinə tikan kimi göründü. O, nərildəyib, Urtımbəydən aralandı və tənbəl-tənbəl Tayqaya sarı getdi.

Urtımbay isə kəndə sarı qaçmağa başladı. Qarşısına gələn adamları görəndə özünü sındırmadı, öyünməyə başladı:

-Az qala ayını boğub öldürmüşdüm, güclə əlimdən qurtarıb Tayqaya qaçdı...

Tərcümə edib uşaqlar üçün işləyən: R.Y.Əliyev



